COMMITTEE OF MINISTERS
COMITÉ DES MINISTRES

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**MINISTERS' DEPUTIES**
**DÉLÉGUÉS DES MINISTRES**

Recommendations
Recommandations

**CM/Rec(2019)1**

27/03/2019

---

## Recommendation of the Committee of Ministers to member States on preventing and combating sexism

*Unofficial translation into Azerbaijani*

## Recommandation du Comité des Ministres aux États membres sur la prévention et la lutte contre le sexisme

*Traduction non-officielle en azéri*

## Nazirlər Komitəsinin üzv dövlətlərə seksizmin qarşısının alınması və onunla mübarizəyə dair Tövsiyəsi

---

*© Council of Europe, original English and French versions*

*Text originated by, and used with the permission of, the Council of Europe. This unofficial translation is published by arrangement with the Council of Europe, but under the sole responsibility of the translator.*

* * * * *

*© Conseil de l'Europe, versions originales en anglais et français*

*Le texte original provient du Conseil de l'Europe et est utilisé avec l'accord de celui-ci. Cette traduction est réalisée avec l'autorisation du Conseil de l'Europe mais sous l'unique responsabilité du traducteur.*

**NAZİR MÜAVİNLƏRİ** Tövsiyələr **CM/Rec(2019)1** 27 mart 2019-cu il

---

**Nazirlər Komitəsinin üzv dövlətlərə seksizmin qarşısının alınması və onunla mübarizəyə dair Tövsiyəsi (CM/Rec(2019)1)** [1]

(*27 mart 2019-cu il tarixdə nazir müavinlərinin 1342-ci görüşündə Nazirlər Komitəsi tərəfindən qəbul edilmişdir*)

---

Nazirlər Komitəsi, Avropa Şurasının Əsasnaməsinin 15.b Maddəsinin müddəalarına uyğun olaraq,

Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyasında nəzərdə tutulduğu kimi, insan hüquqlarının müdafiəsi, demokratiyanın işləkliyi və yaxşı idarəetmə, qanunun aliliyinə hörmət və bütün insanların rifah halının yaxşılaşdırılması üçün gender bərabərliyinin vacib olduğunu, qadınların və kişilərin, qızların və oğlanların hüquq bərabərliyinə, eləcə də, ictimai və şəxsi həyatın bütün sahələrinə onların eyni dərəcədə cəlb olunmasına, eyni imkanlara, məsuliyyətə və iştirakçılığa malik olmasına səbəb olduğunu, həm də qadınların və kişilərin resurslara bərabər çıxış imkanlarını və onların arasında resursların bərabər şəkildə bölüşdürülməsini nəzərdə tutduğunu xatırladaraq,

Birləşmiş Millətlər Təşkilatının Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi Komitəsi tərəfindən və iştirakçı dövlətlərin əsas öhdəlikləri haqqında onun 28 saylı Ümumi Tövsiyəsində müəyyən edildiyi kimi, Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 2-ci maddəsinə əsasən cinsi mənsubiyyət və/yaxud gender zəminində baş verən ayrı-seçkiliyin insan hüquqlarını pozduğunu və insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsinə əngəl törətdiyini xatırladaraq,

Ayrı-seçkiliyə yol açan və qadınların cəmiyyətdə tam inkişafının qarşısını alan seksizmin qadın və kişilər arasında tarixən qeyri-bərabər güc nisbətlərinin bir təzahürü olduğunu xatırladaraq;

Seksizmin bütün sektorlarda və bütün cəmiyyətlərdə geniş yayıldığını və geniş vüsət aldığını qeyd edərək;

Seksizmin qadın və kişilərə, qızlara və oğlanlara mənfi təsir göstərən gender stereotipləri vasitəsilə gücləndiyini və gender bərabərliyinə və inklüziv cəmiyyətlərə nail olmağa əngəl yaratdığını təsdiq edərək;

Seksist davranışın qeyri-mütənasib təsirinə məruz qalan qadın və qızların səlahiyyətləndirilməsinə seksizmin əngəl yaratdığını qeyd edərək; və daha sonra, kişilərin və oğlanların normalarının, davranışının və gözləntilərinin gender stereotipləri və xarakterik qərəzli münasibətlər tərəfindən formalaşdırdığını və bu səbəbdən də seksist hərəkətlərə yol açdığını qeyd edərək;

Seksizmin qadınlar və qızlara qarşı zorakılıqla əlaqədar olduğundan və bu səbəbdən də "gündəlik" seksizm hərəkətlərinin fürsətləri və azadlıqları məhdudlaşdıran bir hədə-qorxu, vahimə, ayrı-seçkilik, təcridetmə və etibarsızlıq mühitini yaradan davamlı zorakılığın bir hissəsini təşkil

---

[1] Bu Tövsiyə qəbul olunduğu zaman nazir müavinlərinin görüşlərinə dair prosedur qaydaların 10.2-ci maddəsinin tətbiqi zamanı Rusiya Federasiyasının nümayəndəsi öz hökumətinin bu Tövsiyəyə əməl edib-etməməsi hüququnu özündə saxlamış, Rusiya qanunvericiliyində "gender" anlayışının olmaması səbəbindən və beynəlxalq səviyyədə "gender" termininin ümumi qəbul edilən anlayışının mövcud olmadığını nəzərə alaraq xüsusilə, Preambula fəslinin 3-cü paraqrafında "gender" terminin istifadə edilməsinə qarşı çıxmışdır. Bundan əlavə, Rusiya Federasiyası "interseks" və "trans" şəxslərin bu Tövsiyənin əhatə dairəsinə düşmədiyini hesab edir.

etdiyindən narahatlığını ifadə edərək;

Qadınların və qızların çoxsaylı və çoxşaxəli ayrı-seçkilik formalarına məruz qaldığını və ayrı-seçkilik, nifrət yaradan və ya zərərli olan digər normalarla və ya davranışlarla birliləşən seksizmlə qarşılaşma ehtimalını qeyd edərək;

Seksizmin və seksist davranışların fərdi, institusional və struktur səviyyələrində törədildiyindən və hər üç səviyyədə dağıdıcı təsirlərə məruz qoyduğundan və seksizmin qarşısını almaq və ona qarşı mübarizə aparmaq üçün tədbirlərin bütün səviyyələrdə həyata keçirildiyindən xəbərdar olaraq;

Birləşmiş Millətlər Təşkilatının cinslərdən birinin naqisliyi, yaxud üstünlüyü ideyasına, yaxud kişilərin və qadınların roluna dair stereotiplərə əsaslanan xurafatın kökünün kəsilməsinə, adətlərin və hər cür başqa praktikanın ləğv edilməsinə nail olmaq məqsədilə kişi və qadınların sosial və mədəni davranış modelini dəyişdirməyi tələb edən "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1979-cu il tarixli Konvensiyasını (CEDAW) xatırladaraq;

Birləşmiş Millətlər Təşkilatının Qadınların Vəziyyətinə dair Dördüncü Ümumdünya Konfransı (1995) tərəfindən qəbul edilmiş Pekin Bəyannaməsi və Fəaliyyət Platformasında və xüsusi olaraq, 2014-cü ildə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası tərəfindən təşkil edilmiş Pekin + 20 Regional Baxış İclasının Hesabatında (burada qeyd olunduğu kimi, ayrı-seçkilik yaradan stereotiplər geniş yayılmaqda və qadınların təhsilinə və iqtisadiyyata və ictimai həyatda iştirakına mənfi təsir göstərməkdə davam edir) qarşıya qoyulmuş məqsədləri nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyini", o cümlədən, Davamlı İnkişaf Məqsədi 5-i ("Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək"), Davamlı İnkişaf Məqsədi 16-nı ("Dayanıqlı inkişaf üçün sülhsevər və açıq cəmiyyətlərin təşviqi, hamı üçün ədalət mühakiməsinə çıxış imkanının təmin edilməsi və qurumların bütün səviyyələrdə səmərəliliyinin və hesabatlılığının təmin edilməsi") və Davamlı İnkişaf Məqsədi 4-ü ("Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək") nəzərə alaraq;

Birləşmiş Millətlər Təşkilatının Uşaq hüquqları haqqında Konvensiyasını (1989) və sözügedən sənəddə uşağa və ya onun valideyninə və ya qanuni qəyyumuna qarşı cinsi zəmində ayrı-seçkiliyə yol verilməsinin qadağan edildiyini nəzərə alaraq;

İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanı (ETS No. 5) və onun insan hüquqlarından istifadə edilməsində ayrı-seçkiliyin qadağan edilməsini xatırladaraq;

Avropa Şurasının gender bərabərliyi strategiyası sənədlərində və tövsiyələrində gender stereotiplərinin və seksizmin qarşısının alınması və gender bərabərliyi prinsipinin bütün siyasətlərə və tədbirlərə inteqrasiyasını təmin etməkdən ibarət olduğunu xatırladaraq;

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (CETS No. 210, İstanbul Konvensiyası) tərəflərdən "qadın və kişilərin sosial və mədəni davranış modellərində dəyişikliklərin edilməsinin təşviq edilməsi üçün qadın və ya kişi bərabərsizliyinə və ya stereotipli rollara əsaslanan yanlış təsəvvürləri, adət-ənənələri və digər bütün zərərli təcrübələri aradan qaldırmaq məqsədi ilə lazımi tədbirləri görməyi" tələb etdiyini və həmçinin, İstanbul Konvensiyası tərəflərdən təcavüz məqsədi ilə təqibə görə cinayət məsuliyyətinin nəzərdə tutulmasını və cinsi qısnamaya görə cinayət məsuliyyətinin və digər hüquqi sanksiyaların nəzərdə tutulmasını təmin etmək üçün bütün zəruri tədbirləri görməyin təmin edilməsini tələb etdiyini xatırladaraq,

Avropa Sosial Xartiyasının (ETS No. 35, ETS No. 163 [dəyişdirilmiş]) və onun bərabər imkanlara, ayrı-seçkiliyin qadağan edilməsinə və iş yerində ləyaqətin qorunmasına dair müddəalarını nəzərə alaraq;

Avropa İnsan Hüquqları Məhkəməsi, öz presedent hüququnda gender bərabərliyinin inkişafının bu gün Avropa Şurasına üzv dövlətlərində əsas məqsəd olduğunu və ənənələrə, ümumi fərziyyələrə

və ya üstünlük təşkil edən ictimai münasibətlərə istinad edilməsinin cinsi zəmində fərqli davranışa haqq qazandırılması üçün yetərsiz olduğunu təkrar diqqətə çatdırdığını xatrladaraq,

Bundan başqa, Məhkəmə, qadınların əsas dayəlik edən və kişilərin isə əsas çörək qazanan şəxslər kimi başa düşülməsinə dair gender stereotiplərinin özlərinə fərqli davranışlarda haqq qazandırmasının mümkünsüzlüyünü bildirərək;

Nazirlər Komitəsinin üzv dövlətlərə aşağıdakı tövsiyələrini xatırladaraq: Təhsil sahəsində gender amilinin nəzərə alınmasına dair Rec(2007)13 saylı tövsiyə; Gender bərabərliyi standartları və mexanizmləri haqqında CM/Rec(2007)17 saylı tövsiyə; Gender bərabərliyi və media haqqında Rec(2013)1 saylı tövsiyə; Audio-vizual sektorda gender bərabərliyinə dair Rec(2017)9 saylı tövsiyə;

Seksist nifrət nitqindən bəhs edən, İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRİ) 2015-ci ilin dekabr ayında qəbul etdiyi nifrət nitqinə qarşı mübarizə üzrə 15 saylı Ümumi Siyasət Tövsiyəsinə istinad edərək;

Stereotiplər, seksizm və ifrat seksuallaşdırma əleyhinə mübarizəni media və təhsil sahələrində nəzərəçarpacaq dərəcədə davam etdirməklə yanaşı zorakılıqla və xüsusilə də cinsi zorakılıqla mübarizə aparmaq zərurətini və qızlar və oğlanlar arasında bərabərliyin təşviq edilməsi zərurətini vurğulayan Avropa Şurasının Uşaq Hüquqları Strategiyasını (2016-2021) nəzərə alaraq,

2016-2019-cu illər üçün Avropa Şurasının İnternet İdarəçiliyi Strategiyasını və hər bir şəxsin, xüsusilə də qadınların və uşaqların internet zorakılığından, o cümlədən, kiber-təqibdən, seksizmdən və cinsi zorakılıq təhdidlərindən qorunması üçün tədbirlərin monitorinqinə dair çağırışını nəzərə alaraq;

"Uşaqların ifrat seksuallaşdırılması əleyhinə mübarizə", "Kibercinayətkarlığa və onlayn nifrətə son qoyulması" və "İctimai yerlərdə qadınlara qarşı cinsi zorakılığa və qısnamaya son qoyulması" haqqında Avropa Şurası Parlament Assambleyasının 2119 (2016), 2144 (2017) və 2177 (2017) saylı müvafiq Qətnamələrini xatırladaraq;

Yuxarıda göstərilən qanunvericilikləri və sənədləri nailiyyətlər və çətinliklər də daxil olmaqla beynəlxalq, milli, regional və yerli səviyyədə həyata keçirilməsinin nəticələrinə diqqət yönəldərək;

Beynəlxalq, milli və regional səviyyədə gender bərabərliyi prinsipini təmin edən standartların mövcudluğuna baxmayaraq, standartlar və praktikalar arasında, de-jüre və de-fakto gender bərabərliyi arasında boşluğun hələ də davam etdiyini nəzərə alaraq;

Seksizmin müxtəlif təzahürlərinin geniş yayılması gender bərabərliyinə nail olmaqda davamlı çətinliklərlə sıx bağlı olduğunu və seksizmin həlledici bir səbəb və gender bərabərsizliyinin nəticəsi olaraq aradan qaldırılması arzusuna dair öz fikrini ifadə edərək;

Beynəlxalq səviyyədə razılaşdırılmış "seksizm" anlayışının və onun aradan qaldırılması üçün xüsusi təyin edilmiş bir hüquqi vasitənin mövcud olmadığını qeyd edərək;

Seksizmdən və onun təzahürlərindən azad bir Avropanı yaratmağa səy göstərərək,

Üzv dövlətlərinin hökumətlərinə aşağıdakıları tövsiyə edir:

1. Dövlət və özəl sektorlarda seksizmin və onun təzahürlərinin qarşısını almaq və onunla mübarizə aparmaq üçün tədbirlər görmək və bu Tövsiyəyə əlavə edilmiş əsas anlayışlara və qaydalara diqqət yetirərək müvafiq qanunvericilik, siyasət və proqramları həyata keçirmək məqsədilə aidiyyəti olan maraqlı tərəfləri təşviq etmək;

2. Bu Tövsiyənin həyata keçirilməsində irəliləyişləri izləmək və həyata keçirilən tədbirlər və bu sahədə əldə edilən nailiyyətlər barədə Avropa Şurasının səlahiyyətli rəhbər komitəsinə (komitələrinə) məlumat vermək;

3. Bu Tövsiyənin, o cümlədən, onun əlavəsinin tərcümə edilməsini və müvafiq orqanlar və maraqlı tərəflər arasında yayılmasını təmin etmək (əlçatan formatlarda).

**CM/Rec(2019)1 saylı Tövsiyəyə Əlavə**

**Seksizmin qarşısının alınması və onunla mübarizə üçün təlimatlar: həyata keçirilməsi üçün tədbirlər**

**Tərifi**

Bu Tövsiyənin məqsədi üçün seksizm:

Bir şəxsin və ya bir qrup şəxsin cinsi mənsubiyyətinə görə aşağı səviyyədə dayanması (zəif olması) ideyasına əsaslanan, onlayn və ya oflayn rejimdə, ictimai və ya özəl sahələrdə baş verən və aşağıdakı halların məqsədi və ya təsiri ilə baş verən hər hansı bir hərəkət, jest, vizual görünüş, şifahi və yazılı nitq, təcrübə və ya davranış:

i. bir nəfərin və ya bir qrup insanın şəxsi ləyaqətini və ya hüquqlarını pozur; və ya.
ii. bir şəxsin və ya bir qrup şəxsin fiziki, cinsi, psixoloji və ya sosial-iqtisadi zərər və ya əzab çəkməsi ilə nəticələnir; və ya
iii. qorxuducu, düşmənçilik, təhqiramiz, alçaldıcı və ya xoşagəlməz mühit yaradır; və ya.
iv. muxtariyyətə və insan hüquqlarının tam həyata keçirilməsinə bir şəxs və ya bir qrup şəxs tərəfindən əngəl yaradır; və ya v.
v. gender stereotiplərinin qoruyub saxlayır və möhkəmləndirir[2].

**Kontekst**

Seksizmin, seksist normaların və davranışların və seksist nitqin aradan qaldırılması bir sıra beynəlxalq və regional qanunvericiliklərdə nəzərdə tutulur. Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (CETS No. 210, İstanbul Konvensiyası) və Birləşmiş Millətlər Təşkilatının “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyası (CEDAW) gender stereotipləri, gender bərabərsizliyi, seksizm və qadınlara və qızlara qarşı zorakılıq halları arasında sürəkli bir proses olduğunu müəyyən etmişdir. Beləliklə, əhəmiyyətsiz və ya kiçik seksist davranışların, şərhlərin və zarafatların açıq-aşkar formada sürəkli davamının bir ucunda "gündəlik" seksizm hərəkətləri dayanır. Halbuki, bu əməllər adətən qadınların aşağlandığı, ləyaqətlərinin alçaldıldığı, hörmətdən düşdüyü və o cümlədən, iş yerində, özəl həyatlarında, ictimai yerlərdə və ya onlayn məkanda fəaliyyətlərinin məhdudlaşdığı ictimai iqlimin formalaşmasına təkan verir. Xüsusilə seksist nifrət nitqi kimi seksist davranış cinsi təhqirə və ya zorakılığa, təcavüzə və ya potensial ölüm halı da daxil olmaqla, açıq-aşkar təhqiramiz və təhdidedici hərəkətlərə yol aça və ya bu hərəkətləri qızışdıra bilər. Digər fəsadlara resurs ikisi, özünə zərər və ya intihar halları daxil ola bilər. Beləliklə, seksizmin aradan qaldırılması Dövlətlərin insan hüquqları, gender bərabərliyi və qadınlara və qızlara qarşı zorakılığın beynəlxalq insan hüquqlarına riayət etməklə və eləcə də İştirakçı Dövlətlərin İstanbul Konvensiyasına uyğun olaraq müsbət öhdəliklərin bir hissəsini təşkil edir.

Seksizm və seksist davranışlar fiziki, cinsi, psixoloji və ya sosial-iqtisadi zərərlə nəticələnir və əhalinin müxtəlif təbəqələrinə fərqli təsir göstərir. Qadınlar və qızlar sözügedən davranışların qeyri-mütənasib təsirlərinə məruz qalır. Seksizm və seksist davranış qadın və qızların

[2] Gender stereotipləri öncədən şüurlarda kök salan, qadınlara və kişilərə cinsi mənsubiyyətləri ilə müəyyən edilən və məhdudlaşan xüsusiyyətlər və rollar ayıran sosial və mədəni modellər və ya ideyalardır. Gender stereotipləri real gender bərabərliyinə nail olmaq qarşısında ciddi maneə təşkil edir və cinsi ayrı-seçkiliyə zəmin yaradır. Belə stereotiplər qızların və oğlanların, qadınların və kişilərin təbii istedadlarının və qabiliyyətlərinin inkişafını, təhsil və peşə seçimlərini və təcrübələrini, eləcə də bütövlükdə həyatdakı imkanlarını məhdudlaşdıra bilər "(Avropa Şurasının gender bərabərliyi strategiyası 2018-2023, Strateji məqsəd 1)

səlahiyyətləndirilməsinə və hüquqlarının artırılmasına bir maneə təşkil edir; seksizmin və seksist davranışların aradan qaldırılması hər kəsə: qadınlara, qızlara, kişilərə və oğlanlara fayda gətirəcək.

Seksizm və seksist davranışlar kiber-məkan (internet və sosial media) da daxil olmaqla, insan fəaliyyətinin bütün sahələrində baş verir. Şəxslərin fərdi, yaxud qrup şəklində birbaşa hədəf alınmadığına baxmayaraq (məsələn, seksizmin reklam edilməsi, yaxud iş yerində çılpaq qadın şəklinin yerləşdirilməsi), onlara fərdi, yaxud qrup şəklində bu hallara rast gəlmək olar. Seksizmin davam etdirilməsi və rast gəlinməsi üç səviyyədə baş verir: fərdi, institusional (məsələn, ailə, iş və ya təhsil mühiti) və struktur (məsələn, cəmiyyətdə gender bərabərsizliyi, sosial normalar və davranışlar). Fiziki şəxslər və qruplar seksist davranışlar haqqında xəbər vermədiyi və ya şikayət etmədiyi təqdirdə seksizm ciddi bir şəkildə qəbul edilməməsi qorxusu ilə təqibdən və hətta məsuliyyətdən yayındırılır.

Seksizmin kökləri texnologiyada deyil, davamlı gender bərabərsizliyində olduğu halda belə, İnternet xüsusilə seksist nifrət nitqinin və seksizmin ifadəsi və ötürülməsi üçün yeni bir meyarla təmin etmişdir. Bundan əlavə, #MeToo kampaniyası və dünyanın müxtəlif yerlərində (2017-ci ildən başlayaraq), o cümlədən, Avropa Şurasına üzv ölkələrdə baş verən silsilə tədbirlər və siyasət tədbirləri kimi ictimai hadisələr, seksizm haqqında məlumat əlçatımlığına və onunla mübarizə aparmaq üçün daha güclü tədbirlərin görülməsinə ehtiyacı işıqlandırmışdır.

Seksizm və seksist davranışlar kök salır və gender stereotiplərini gücləndirir. Avropa İnsan Hüquqları Məhkəməsi hesab edir ki, "cəmiyyətdə müəyyən bir qrupun stereotipi ilə əlaqədar məsələ onların potensialının və ehtiyaclarının fərdi şəkildə qiymətləndirilməsi faktını qadağan edir"[3]. Gender stereotipləri qeyri-bərabər sosial güc strukturlarını gücləndirir və qadınlar və kişilər arasında resurslarının paylanmasına mənfi təsir göstərir. Üzv dövlətlərindəki kişilər və qadınlar arasında əmək haqqı fərqi və pensiya müavinəti fərqi bu sıradan olan hadisələrdəndir. Gender stereotipləri bu səbəbdən də mədəni xurafatların köhnəfikirliliklərin, adət-ənənələrin və bir çox hallarda dini inancların və təcrübələrin şərhləri vasitəsilə qadınlar və kişilər üçün müəyyən edilən "müvafiq" vəzifələrin ictimai quruluşlarıdır. Cəmiyyətdə "düzgün" yer hesab etdikləri qavrayışlarına etiraz edən və ya onlardan kənarlaşan qadınlar seksizmlə və mizoginiya ilə qarşılaşa bilər və hökmran kişilik qavrayışlarına etiraz edən kişilər isə seksizmlə qarşılaşa bilər.

**Çoxşaxəlilik, situasiya zəiflikləri və ağırlaşdırıcı hallar**

Qadınlar və kişilər bir sıra digər amillərə, o cümlədən, lakin, bunlarla məhdudlaşmayaraq, etnik, azlıq və ya yerli status, yaş, dini əqidə, qaçqın və ya miqrant statusu, əlillik, ailə vəziyyəti, gender şəxsiyyəti, seksual oriyentasiya, yaxud seksistk kimi bir sıra amilə əsaslanan, çoxşaxəli seksizm formaları ilə qarşılaşa bilər.
Onlar daha həssas vəziyyətlərdə ola bilərlər və ya fərqli mühitlərdə müxtəlif seksizm hərəkətləri vasitəsilə hədəf götürülə bilərlər (məsələn, biznes, maliyyə, hərbi və ya siyasətdə kişilərin üstünlük təşkil etdiyi mühitlərində fəal olan gənc qadınlar və qadınlar kimi). Səlahiyyət və ya hakimiyyət mövqelərində olan qadınlar, o cümlədən, ictimai xadimlər seksizm üçün xüsusi hədəflər hesab olunur, çünki onlar qadınların ictimai yerlərdən və ya səlahiyyətlərindən istifadəsini qadağan edən cəmiyyətdəki sosial gender normalarından kənarlaşdırılmış hesab olunur. İnterseks və trans şəxslər həmçinin seksizmlə bağlı əlavə və/yaxud güclü çətinliklərlə üzləşirlər.

Bəzi hallar seksist davranışların ciddiliyini və ya təsirini daha da ağırlaşdıra bilər və ya zərərçəkmiş şəxsin reaksiya vermə qabiliyyətinə mənfi təsir göstərə bilər. Sözügedən ağırlaşdırıcı hallar seksist hərəkətlərin və ya ifadələrin iyerarxiya və ya asılı əlaqələr daxilində, xüsusilə də iş yerində, təhsil və ya tibbi xidməti mühitində, (ictimai) xidmətlər çərçivəsində və ya kommersiya münasibətlərində baş verdiyi yerlərdə mövcuddur. Seksizm müəllifin güc, hakimiyyət və ya bir siyasətçi, fikir müəllifi və ya müəssisə rəhbəri kimi bir vəzifədə olduqda xüsusilə zərərlidir. Digər ağırlaşdırıcı amil isə seksist ifadələrin və ya hərəkətlərin gedib çatdığı, yaxud çatacağı yerlərin, o cümlədən, onların ötürülmə vasitələrinin miqyasının geniş olmasından, sosial və ya aparıcı KİV-lərin istifadəsindən və təkrarlanma dərəcəsindən ibarətdir.

[3]*Carvalho Pinto de Sousa Morais Portuqalaya qarşı*, 17484/15 saylı ərizə, Avropa İnsan Hüquqları Məhkəməsinin 25 İyul 2017 tarixli qərarı, 46-cı paraqraf.

## I. Seksizmin qarşısının alınması üçün ümumi vasitələr və tədbirlər

Seksizmin qarşısının alınması və onunla mübarizə aparmaq üçün tədbirlərin əsas məqsədi fərdi, institusional və struktur səviyyələrdə davranış və mədəni dəyişikliklərin tətbiq edilməsindən ibarətdir.

Seksizmin qarşısının alınması və onunla mübarizə aparmaq üçün nəzərdə tutulan vasitələrə qanunvericilik, icra, inzibati, büdcə və tənzimləyici alətlər, o cümlədən, planlar, siyasətlər və proqramlar daxil edilə bilər.
Dövlətlər öz vəziyyətlərinə və xüsusi fəaliyyətlərinin məqsədinə uyğun gələn ən yaxşı alətləri seçməlidirlər.
Bir tərəfdən, qeyri-ixtiyari qərəzli münasibəti, digər tərəfdən isə qəsdən yol verilmiş seksist davranışları aradan qaldırmaq üçün müxtəlif vasitələrə ehtiyac vardır. Birincisini maarifləndirmə, təlim və təhsil vasitəsilə aradan qaldırmaq mümkündür, lakin, qəsdən yol verilmiş və sürəkli davam edən seksist davranışları və seksist nifrət nitqini aradan qaldırmaq üçün isə güclü tədbirlər görülməlidir. Cinsisiyyətçiliyin aradan qaldırılmasına yönələn qanunvericilik, o cümlədən anlayışlar; istifadəçi təlimatı; və zərər çəkmiş şəxslərin pozulmuş hüququnun bərpa edilməsi və kompensasiya ödənilməsi tələbləri və cinayətkarların riskləri və nəticələri nəzərə alınacaq vacib variantlardır. [4]

Dövlətlər seksist davranışın qarşısını almaq və ondan müdafiə məqsədilə təqsirləndirilən şəxsləri uyğun olduqda təqib etmək və cəzalandırmaq və zərər çəkmiş şəxslərə kompensasiya ödənilməsini təmin etmək üçün mövcud vasitələrə müraciət etməli və onların effektiv şəkildə həyata keçirilməsini təmin etməli və ya yeni vasitələr yaratmalıdırlar.

Üzv dövlətlərin hökumətləri bu Tövsiyənin həyata keçirilməsini dəstəkləmək üçün aşağıdakı tədbirləri araşdırmağa dəvət olunur.

### I.A. Qanunvericilik və siyasət

I.A.1. Seksizmi pisləyən və seksist nifrət nitqini müəyyən edən və cinayət məsuliyyətini nəzərdə tutan qanunvericilik islahatının nəzərə alınması.

I.A.2. Seksizmlə mübarizə aparmaq üçün qanunvericiliyin və siyasətin işlənib hazırlanması zamanı çoxşaxəli amilləri, qadınlar arasındakı fərqləri, situasiya zəifliklərini və ağırlaşdırıcı halları nəzərə almaq lazımdır.

I.A.3. Qadınları səlahiyyətləndirmək və gender bərabərliyi üçün bir platforma kimi fəaliyyət göstərəcək əhatəli bir ictimai infrastrukturun işlənib hazırlanması və ona investisiya yatırılması və hədəf seçilmiş məqsədlərlə, meyarlarla, müddətlərlə, irəliləyişlərlə və nəticə göstəriciləri ilə seksizmin və gender ayrı-seçkilik stereotiplərin aradan qaldırılmasına dair siyasət çərçivəsinin və atılan addımların təsirini qiymətləndirilməsi üçün monitorinq və qiymətləndirmə mexanizminin işlənib hazırlanması.

I.A.4. Vətəndaş cəmiyyətinin, xüsusilə də qeyri-hökumət qadın təşkilatlarının, dini qurum və icma rəhbərlərinin, hüquqşünasların və hakimlərin peşəkar təşkilatlarını və həmkarlar təşkilatlarını seksizmlə mübarizə aparmaq məqsədi ilə siyasətin və qanunvericilik çərçivələrinin tərtib edilməsində və əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə cəlb etmək və bu tədbirlərin həyata keçirilməsində onların iştirakını təmin etmək.

I.A.5. Seksizmə qarşı mübarizədə bütün səviyyələrdə fəal iştirak edən (xüsusilə, aşağıda III hissədə bəhs edilən) müvafiq qeyri-hökumət təşkilatlarının, xüsusilə qeyri-hökumət qadın

[4] Məsələn, “Anti-Sexisme – Mode d’emploi”, Institut pour l’égalité de femmes et des hommes, Fransız dilində mövcuddur: http://igvm-iefh.belgium.be/sites/default/files/downloads/79%20-%20Anti-sexisme%20mode%20emploi_FR.pdf.

təşkilatlarının fəaliyyətinin bütün səviyyələrdə tanınması, təşviq edilməsi və dəstəklənməsi və bu təşkilatlarla effektiv əməkdaşlığın qurulması.

I.A.6. Müvafiq dövlət orqanlarını və xidmətlərini, məsələn, ombudsmanları, bərabərlik komissiyalarını, qanunvericilik orqanlarını, milli insan hüquqları institutlarını, dövlət müəssisələrini və şikayət orqanlarını seksizmin aradan qaldırılması haqqında hərtərəfli siyasətə uyğun olaraq seksizmə dair etik davranış məcəllələrinin və ya qaydalarının tərtib edilməsinə və sözügedən fəaliyyətlərin kifayət qədər resurslarla təmin edilməsinə cəlb etmək.

I.A.7. İctimai və şəxsi həyatda seksizmin aradan qaldırılması üçün siyasətləri və tədbirləri izləmək cavabdehliyinə malik gender bərabərlik orqanının və ya digər rəsmi təşkilatın yaradılmasını nəzərə almaq.

Bu tapşırıqları yerinə yetirmək üçün sözügedən orqan lazımi səlahiyyət və resurslara sahib olmalıdır.

I.A.8. Seksist davranışdan zərər çəkmiş şəxslər üçün hüquqi müdafiə vasitələrinin təmin edilməsi.

I.A.9. Seksizm və gender və cinsi zəmində törədilmiş cinayət qurbanları və cinayətkarlarla iş aparan qurumlar üçün təlim proqramlarının hazırlanması.

I.A.10. İnzibati sanksiyaların tətbiq olunmasını nəzərdə tutmaq (məsələn, seksizmi və seksist davranışı, xüsusilə də seksist nifrət nitqini ləğv edə bilməyən dövlət orqanlarından və ya digər təşkilatlardan maliyyə və digər formada yardımları geri çəkmək).

## İ.B. Maarifləndirmə tədbirləri

I.B.1. İctimai xadimlər, xüsusilə də siyasətçilər, dini, iqtisadi və icma liderləri və digərləri tərəfindən ictimai rəyi formalaşdırmaq, seksizmi və seksist davranışları pisləmək və gender bərabərliyinin dəyərlərini müsbət yönümdə gücləndirmək üçün sürətli reaksiyaların təşviq edilməsi.

I.B.2. Üzv dövlətləri arasında birgə tədqiqatlar da daxil olmaqla seksizmin və onun təzahürlərinin baş verməsi və mənfi təsirinə dair (o cümlədən, iş yerində seksizm və cinsi qısnama, seksist nifrət nitqi, hədəflər, cinayətkarlar, ötürülmə vasitələri, media və ictimaiyyətin cavabı haqqında) sistemli və cinsi mənsubiyyət və yaş qrupları üzrə məlumatları təmin edən tədqiqatların başladılması, dəstəklənməsi və maliyyələşdirilməsi. Bu cür məlumatların müvafiq dövlət orqanları, təhsil müəssisələri və ictimaiyyət üçün yayımlanması.

I.B.3. Seksizm və qadınlara və qızlara qarşı zorakılıq halları arasında əlaqələrə dair effektiv ünsiyyət və maarifləndirmə kampaniyalarını maliyyələşdirmək üçün resursların ayrılması və zərər çəkmiş şəxsləri dəstəkləyən təşkilatları maliyyələşdirmək.

I.B.4. Bütün səviyyələrdə və müxtəlif kütləvi informasiya vasitələri ilə (məsələn, internetdə və aparıcı KİV-lərdə mövcud olan əl kitablarının, təlimatların, videoçarxların istehsalı, seksizm əleyhinə milli günün təqdim edilməsi, gender bərabərliyini və qadın hüquqlarını qeyd etmək üçün muzeylərin yaradılması) mütəmadi maarifləndirmə tədbirləri təşəbbüslərinin hazırlanması, həyata keçirilməsi və təşviq edilməsi. Bu təşəbbüslər ümumi əhali, xüsusilə də valideynlər arasında seksizmin müxtəlif formaları, o cümlədən, "qadınlara qarşı hörmətsizlik"[5] kimi fenomenlər, onların qarşısını almaq və onlara qarşı cavab tədbiri görmək yolları və onların fiziki şəxslər və cəmiyyət, o cümlədən, qızlar və oğlanlar üçün yaratdığı zərərləri barədə məlumatlılığı və anlayışı artırmaq məqsədi daşımalıdır.

[5] Qadınlara qarşı hörmətsizlik etmək (mansplain) (fel, qeyri-formal): (kişi tərəfindən) bir qadına bir məsələni hörmət qoymadan, təkəbbürlə, olduqca əminliklə, olduqca bəsitləşdirilmiş formada, yaxud həmsöhbətin mövzuya dair heç bir məlumatı olmadığı bir şəkildə izah etmək.

I.B.5. Dövlət və özəl sektorlarda və peşə təhsili müəssisələrində (məsələn, media, hərbi, tibb işçiləri və tibb və hüquq mütəxəssisləri, mühasibatlıq, idarəetmə və biznes məktəbləri) insan resursları personalı üçün cinsiyyət bərabərliyi, gender stereotiplərinin mənası, seksizmin, köhnəfikirliliklərin və qərəzli münasibətlərin aradan qaldırılma yolları və stereotiplərlə mübarizə aparmaq üsulları mövzularında təhsilin bütün sahələrində və təhsilin bütün səviyyələrində, o cümlədən, təhsil müəssisələrində təlimatçıların ehtiyacları üçün xüsusi tərtib olunmuş və fasiləsiz təhsil və təlimlərin tərtibatını və həyata keçirilməsini təmin etmək.

I.B.6. Seksist ifadə, təsvirlər və gender stereotipləri üçün bütün yaş qruplarından olan şagirdlər tərəfindən/onlar üçün və bütün təhsil və təlim formalarında istifadə olunan dərsliklərin, tədris materiallarının və tədris metodlarının qiymətləndirilməsini təmin etmək və gender bərabərliyini fəal şəkildə təşviq etmək üçün onlara düzəliş etmək.[6]

I.B.7. Gender bərabərliyi baxımından, eləcə də oyuncaqların, komediyaların, kitabların, televiziyanın, video və digər oyunların, onlayn məzmunun və filmlərin, o cümlədən, qızlar və oğlanların münasibətini, davranışını və şəxsiyyətini formalaşdıran pornoqrafiyanın məzmununda, dilində və təsvirlərində seksizmlə mübarizə üçün tənqidi düşüncənin inkişafının təşviq edilməsi.

I.B.8. Qadınlıq və kişiliyin quruluşu və müasir cəmiyyətdə qadın/qız və kişi/oğlan olmağın mənaları (məsələn, media, azad ictimai mühazirələr və müzakirələr vasitəsilə) haqqında müntəzəm maarifləndirmə kampaniyalarının təşviqi və keçirilməsi.

I.B.9. Seksizmin qarşısının alınması və onunla mübarizə ilə bağlı yaxşı təcrübələri müəyyən etmək və paylaşmaq üçün peşəkarlar (məsələn, jurnalistlər, müəllimlər, hüquq-mühafizə orqanları) və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın təşviq edilməsi.

I.B.10. Bütün insanlara, xüsusilə də gənclərə seksizmin qarşısının alınması, onunla mübarizə və ona qarşı cavab tədbirlərinin görülməsi yolları haqqında ekspert məsləhətinin verilməsi üçün əlçatan strukturların yaradılması.

## II. Hədəf seçilmiş sahələrdə seksizmin və seksist davranışın aradan qaldırılması üçün konkret vasitələr və tədbirlər

Bəzi fəaliyyət sahələri, xüsusilə seksizm hərəkətlərinə və/və ya seksist davranışın xüsusi formalarına meylli olur; bu səbəbdən də əvvəlki bölmədə sadalanan ümumi tətbiq edilməsi tövsiyə olunan tədbirlərə və vasitələrə əlavə olaraq həmin sahələrdə seksizmin qarşısının alınması və onunla mübarizə aparmaq məqsədilə hədəf seçilmiş tədbirlərin görülməsi mütləqdir.

### II.A. Dil və ünsiyyət

Dil və ünsiyyət gender bərabərliyinin vacib tərkib hissəsini təşkil edir və o, "kişilik modelinin hegemonluğunu müqəddəsləşdirməməlidir"[7]. Qeyri-stereotipik ünsiyyət maarifləndirmək, məlumat səviyyəsini artırmaq və seksist davranışların qarşısını almaq üçün yaxşı bir yoldur. O, aşağıdakıları əhatə edir: qrupa müraciət edərkən seksist ifadələrin aradan qaldırılması, adlar ilə birgə qadın və kişi və ya neytral cinsi mənsubiyyət formalarından istifadə edilməsi, qadın və kişilərin təmsilçiliyinin şaxələndirilməsi və həm vizual, həm də digər təmsilçiliklərdə bərabərliyin təmin edilməsi.

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.A.1. Avropa Şurası Nazirlər Komitəsinin üzv ölkələrə müvafiq olan mövcud tövsiyələrini, o cümlədən, seksizmin dildən ləğvi haqqında R (90) 4 saylı tövsiyəsinin, gender bərabərliyi

[6] CEDAW Maddə 10.c "Kişi və qadınların rolu barədə hər cür stereotip konsepsiyaları bütün səviyyələrdə və bütün təhsil formalarında… bu məqsədə çatmağa kömək edən birgə təhsili və digər təhsil növlərini təşviq etməklə, o cümlədən dərs vəsaitlərinə və məktəb proqramlarına yenidən baxmaq və təlim metodlarını uyğunlaşdırmaq yolu ilə aradan qaldırmağı" tələb edir.
[7] Nazirlər Komitəsinin Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına dair CM/Rec(2003)3 saylı Tövsiyə, İzahedici Memorandum

standartları və mexanizmləri haqqında CM/Rec(2007)17 saylı tövsiyəsinin (burada qeyd olunur ki, üzv dövlətlərinin tədbirləri bütün sektorlarda, xüsusilə də dövlət sektorunda qeyri-seksist dilin istifadəsinin təşviqinə yönəldilməlidir) təsdiqi və icrası.

II.A.2. Seksist dilin və gender-fərqləndirici fərziyyələrdən və stereotiplərdən asılılığın müəyyən edilməsi və onları gender amillərini nəzərə alan terminologiya ilə əvəz etmək məqsədilə bütün qanunları, qaydaları, siyasətləri və s.-in sistemli şəkildə nəzərdən keçirilməsi.
Yaxşı təcrübəyə dövlət idarəçiliyi sənədlərində istifadə məqsədilə dil və ünsiyyət üzrə seksizmdən azad və gender stereotipləri olmayan praktiki bələdçilərin hazırlanması daxildir.

## II.B. İnternet, sosial media və onlayn seksist nifrət nitqi

Avropda qadınların, xüsusilə gənc qadınların və qızların, qadın jurnalistlərin, siyasətçilərin, ictimai xadimlərin və qadın hüquq müdafiəçilərinin qeyri-mütənasib şəkildə onlayn seksizm təsirlərə məruz qalma halları geniş yayılmışdır. Onlayn seksizmin bir cəhəti ifadə olunan fikir və ya rəylərə mənfi münasibət bildirilməsindən ibarətdir. Kişilərə edilən hücumların daha tez-tez öz peşəkar fikirlərinə və ya səlahiyyətlərinə əsaslandığına baxmayaraq, qadınların seksist və cinsi fərqləndirmə yaradan təhqir və nalayiq davranışa məruz qalma ehtimalı daha yüksəkdir, belə ki, bu halların ifrat səviyyədə istifadəsi internetin yaratdığı imkanlar hesabına öz miqyasını daha da genişləndirə bilər. Onlayn hücumlar yalnız qadınların ləyaqətinə mənfi təsir etmir, iş yeri də daxil olmaqla həm də qadınları öz fikirlərini ifadə etməyinə əngəl törədir və internet məkanından onların sıxışdırılıb çıxarılması, demokratik bir cəmiyyətdə söz və fikir azadlığına zərbə vurulması, peşəkar imkanlarının məhdudlaşdırılması və gender fərqləndirici demokratik çatışmazlığının yaranması ilə nəticələnir. Digər bir cəhət isə bundan ibarətdir ki, rəqəmsal əsr qadınların vücudlarının, söz və fəallığının qatıldığı ətraflı araşdırmaları daha da dərinləşdirmişdir. Bundan əlavə, ictimai mediadan seksist məqsədlər üçün sui-istifadə - məsələn, təsvir edilən şəxslərin razılığı olmadan intim təsvir materialının yerləşdirilməsi kimi məsələlər həll edilməli olan bir zorakılıq formasıdır.

İnternet və sosial media həm ifadə azadlığını, həm də gender bərabərliyini təmin edən vasitələrdir, lakin onlar həm də cinayətkarlara öz təhqiramiz düşüncələrini ifadə etməyə və təhqiramiz davranışa cəlb etməyə şərait yaradır. İrqçi nifrət nitqi Avropa və beynəlxalq insan hüquqları standartlarına zidd olaraq qəbul edildiyinə baxmayaraq, eyni hal həmişə seksist və ya mizoginik nifrət nitqinə uyğun deyildir və bütün səviyyələrdə mövcud siyasət və qanunvericilik bu məsələni uyğun formada həll edə bilməmişdir. Buna görə də, dövlətlərdən nifrət nitqinə qarşı mübarizə aparmaq və cinayət qanunvericilik sanksiyalarının tətbiq edilməsi məsələsinə gəldikdə irqçi nifrət nitqi üçün hazırlanmış sözügedən qaninvericiliyin seksist nifrət nitqi üçün də tətbiq edilməsini təmin etmək tələb olunur.

Bundan əlavə, süni zəka gender bərabərliyi və gender stereotipləri ilə bağlı konkret çətinliklər yaradır. Alqoritmlərin istifadəsi mövcud gender stereotiplərini ötürə və gücləndirə bilər və bu səbəbdən də seksizmin əbədi kök salmasına yol aça bilər. Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur.

II.B.1. Seksist nifrət nitqi hadisələrinin müəyyən edilməsi və bu hadisələr üçün cinayət məsuliyyətinin nəzərdə tutulması və bütün mediaya tətbiq edilməsi, eləcə də məlumatlandırma qaydaları və uyğun sanksiyalara dair qanunvericilik tədbirlərinin həyata keçirilməsi.
İnternet və yeni media da daxil olmaqla, bütün media ilə bağlı seksizm nifrət nitqi üçün daha proaktiv aşkarlama və məlumatlandırma qaydaları təşviq edilməlidir.

II.B.2. Rəqəmsal medianın və müvafiq rəqəmsal davranışın təhlükəsiz və kritik istifadəsi üçün uşaqlara media savadlılığına dair məsləhət verilməsinə kömək etmək məqsədilə uşaqlar, gənclər, valideynlər və pedaqoqlar üçün proqramları (o cümlədən, proqram təminatları) yaratmaq və təşviq etdirmək. Bu, seksist davranışı yaradan hallara, arzuolunmaz materialların internetdə mübadiləsinə və müvafiq cavablara, o cümlədən, onlayn təhlükəsizlik haqqında gender amillərini nəzərə alan məsələlərə dair tədris proqramı, məlumat kitabçalarının və məlumat bülletenlərinin hazırlanması vasitəsilə edilməlidir. Bu cür materialların yayımının genişləndirilməsinin təmin edilməsi.

II.B.3. Sosial mediadan seksist məqsədlər üçün sui-istifadə, internet mühitində təhdidlər və uşaqların və gənclərin üzləşdiyi vəziyyətlər (məsələn, şantaj, pul tələbləri və ya intim şəkillərin arzuolunmaz yayımı), belə halların qarşısının alınması və onlara qarşı cavab tədbirlərinin görülməsi üsulları haqqında praktiki yardımla birgə maarifləndirmə üçün məlumat və kampaniyalar hazırlamaq;

II.B.4. Yeni mediadan istifadə ilə bağlı təhlükələr, imkanlar, hüquqlar və məsuliyyətlər barədə geniş ictimaiyyətə yönəldilmiş kampaniyaların həyata keçirilməsi.

II.B.5. Onlayn seksizmlə mübarizə üsulları, o cümlədən, zərərli və ya arzuolunmaz materiallar barədə təcili şəkildə məlumatlandırma/onların şəbəkədən çıxarılması qaydaları ilə bağlı ekspert məsləhətləri verən onlayn resursların yaradılması.

II.B.6. Kiber-seksizm və kiber-zorakılıq üzrə müntəzəm tədqiqatlar aparmaq və cinsi mənsubiyyət və yaş qrupları üzrə məlumatları toplamaq və nəticələri müvafiq şəkildə paylaşmaq.

II.B.7. Seksizmi və gender stereotiplərini yaşadan texnologiyanın potensial risklərini aradan qaldırmaq üçün gender bərabərliyi perspektivinin bütün siyasətlərə, proqramlara və araşdırmalara inteqrasiya edilməsi və süni zəkanın gender bərabərsizliyini aradan qaldırmağına və seksizmi ləğv etməyinə kömək etmək üsullarını araşdırmaq. Buna qadın və qızların informasiya və texnologiya sahəsində tələbələr, peşəkarlar və qərar qəbul edənlər kimi iştirakını artırmaq üçün tədbirlər daxildir. Məlumatyönümlü alətlərin və alqoritmlərin tərtibatı cinsi zəmində dinamikaya təsir göstərən amil olmalıdır. Bu məsələlər ətrafında şəffaflıq yaxşılaşdırılmalı və iri həcmli məlumatlarda potensial gender qərəzliliyi barədə məlumatlılıq səviyyəsi artırılmalıdır; hesabatlılığın təkmilləşdirilməsi üçün həllər təklif edilməlidir.

## II.C. Media, reklam və digər rabitə məhsulları və xidmətləri

Mediada seksizm – elektron, çap, vizual və audio – "gündəlik" seksizmə davam gətirən və onu adi hal hesab edən mühitin formalaşmasına yol açır. Bu, özünü aşağıdakı hallarda göstərir:

- reklam, film, televiziya, video oyunlar və pornoqrafik materiallar da daxil olmaqla, qadınların, kişilərin, qızların və oğlanların cinsi, cinsi fərqləndirmə yaradan və irqçiliyi təbliğ edən təsvirləri və onların əşyaya çevrilməsi;
- qadınların görünüşü, geyimi və davranışı ilə bağlı fikirlərini və rəylərini balanslaşdırılmış və məlumatlı müzakirə etməkdən ötrü onlar barəsində təhqiredici və ya bayağılaşdırılmış məlumat vermək;
- ailə və cəmiyyət daxilində qadınlar və kişilər barəsində stereotipik rollarda məlumat verilməsi və təsvirlərinin verilməsi;
- cinsi zəmində zorakılıq qurbanlarına münasibətdə gender stereotiplərinin təkrar istehsalı və davam etdirilməsi (yaşadılması);
- qadınların müxtəlif peşəkar və informativ rollarda (ekspertlər, şərhçilər), xüsusilə, azlıqlardan olan qadınlarla əlaqədar olaraq qeyri-bərabər şəkildə təmsil olunması və mənalı iştirakının olmaması. [8]

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.C.1. Mediada və reklamda seksizmi qadağan edən qanunvericiliyi tətbiq etmək və belə tədbirlərin monitorinqini və icrasını təşviq etmək.

II.C.2. Defamasiya haqqında qanunlara seksizm haqqında ifadələrin daxil edilməsini təşviq etmək.

[8] Media və Qadınların İmici mövzusunda Avropa Şurası Konfransının nəticələrinə və tövsiyələrinə baxın (Amsterdam, 4-5 iyul 2013). Konfransın hesabatına baxın: https://rm.coe.int/1680590fb8.

II.C.3. Hər bir sektorda seksizmin, o cümlədən, seksist nifrət nitqinin aradan qaldırılması üçün özünü tənzimləmə siyasət və mexanizmlərin hazırlanmasında, qəbul edilməsində və həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarının, media və reklam sektorlarının iştirakına cağırmaq və onlara dəstək vermək.

II.C.4. Seksizmə qarşı mübarizədə media nəzarəti və reklam təşkilatlarının rolunun təşviq edilməsi.

II.C.5. Mediada və reklamda seksizmə dair şikayətləri qəbul etmək, təhlil etmək və baxış keçirmək səlahiyyətinə malik olan bir təşkilatın yaradılmasını təşviq etmək və seksist məzmunun və ya reklamların mediadan çıxarılmasını və ya forma və məzmunun dəyişdirilməsini tələb etmək səlahiyyətinə malik olmaq.

II.C.6. Seksizmin tanınması, mediada və reklamda qadınların və kişilərin pozitiv və qeyri-stereotipik obrazlarının təşviq edilmə üsulunu və gender amillərini nəzərə alan ünsiyyətin təşviqi yollarına dair jurnalistlər və digər media və kommunikasiya mütəxəssisləri üçün təhsil və təlim strategiyalarının tətbiq edilməsinə gender bərabərliyi komissiyaları və ya milli insan hüquqları institutları kimi müvafiq qurumların cəlb edilməsi. Bu əlavə fəaliyyətlər uyğun şəkildə resurslarla təmin edilməlidir.

II.C.7. Mediada və pornoqrafik materiallarda qadınların və qızların seksizmi təbliğ edən obrazlarının yayılma miqyasının artmasına və təsirinə dair və onların cinsi bərabərsizliklər və qadınlara və qızlara qarşı zorakılıq dərəcəsini artırma səviyyəsi barədə və həmçinin, qadınların fiziki, cinsi və psixoloji sağlamlığına təsirləri ilə bağlı tədqiqatların dəstəklənməsi. Seksizm, gender bərabərsizliyi və qadınlara və qızlara qarşı zorakılıq arasında əlaqələrə dair effektiv ünsiyyət və məlumatlandırma kampaniyalarının maliyyələşdirilməsi üçün resursların ayrılması; və mediada və reklamlarda qadınların və kişilərin pozitiv və qeyri-stereotipik obrazlarının təşviq edilməsi.

II.C.8. Qadın və kişilərin medianın qərar qəbuletmə mövqelərində və məzmunda bərabər iştirakını və bütün mövzularda qadın ekspertlərin məlumat bazalarının yaradılmasını təşviq etmək.

II.C.9. Cinsi həssas məzmunun istehsalı üçün media qurumlarına əlavə maliyyə vəsaitləri ayıran bal əsaslı sistem kimi balanslaşdırılmış gender təmsilçiliyinin təşviqində mükəmməllik və liderlik üçün müsbət tədbirlərin qəbul edilməsi.

II.C.10. Sosial, iqtisadi və siyasi həyatda qadınların fəal iştirakçılar kimi müsbət obrazlarının və kişilərin isə qeyri-ənənəvi vəzifələrdə dayələr kimi müsbət obrazlarının təşviq edilməsinin stimullaşdırılması. Məsələn, dövlət maliyyələşdirməsi vasitəsilə yaxşı təcrübə üçün güzəştlərin və ya mükafatların verilməsi.

II.C.11. Sektor daxilində seksizmə və gender stereotiplərinə qarşı mübarizəni genişləndirmək üçün media tərəfdaşları arasında dialoqun və şəbəkələrin və tərəfdaşlığın inkişaf etdirilməsi yolu ilə yaxşı təcrübənin dəstəklənməsi və təşviq edilməsi.

II.C.12. Həssas hallarda qadınların çoxsaylı və çoxşaxəli ayrı-seçkilik formalarının aradan qaldırılmasına yönəlmiş layihələr. Etnik azlıqlardan olan və/və ya miqrant mənşəli qadınların müsbət obrazlarını təşviq etmək üçün mediaya güzəştlərin tətbiq edilməsi.

## II.D. İş yeri

İş yerində seksizm bir çox formalarda baş verir və bu, həm dövlət, həm də özəl sektorda mövcuddur. Bu, seksist şərhlər və fərdi və ya bir qrup işçiyə yönəlmiş davranışlar vasitəsilə özünü büruzə verir. İş yerində seksizmə digər hallarla birgə bunlar daxildir: təhqiredici şərhlər, əşyaya çevirmək, seksist yumor və ya zarafatlar, ifrat dərəcədə səmimi atmacalar, sükut və ya insanlara məhəl qoymamaq, geyim və fiziki görünüş haqqında boş (yersiz) şərhlər, seksist bədən dili,

hörmətsizlik, qadınları qorxuya salan, yaxud təcrid edən və kişi yoldaşa üstünlük verən kişilik praktikaları.[9] Burada bərabərlik və iş yerində ləyaqəti qorumaq hüququna toxunulur.[10]

Ənənəvi gender rollarına əsaslanan seksist fərziyyələr qadınların analar kimi və ya gələcək analar və ya dayələr kimi daha az etibarlı həmkarlar və işçilər olduğu qənaətinə gəlməyə səbəb ola bilər. Əksinə, evdə qalmayan analara qarşı düşmənçilik baş verə bilər və ya alternativ olaraq, onlar karyeralarını inkişaf etdirmək və nəticədə peşə həyatlarını inkişaf etdirmək üçün vacib imkanlardan təcrid oluna bilər. Bu, qadınların təşviq imkanlarını məhdudlaşdıran şüşə tavanın yaranmasına yol açır. Belə fərziyyələr həm də baxıcılıq vəzifələrini üzərinə götürən kişilərə qarşı seksist ifadələrin işlənməsinə səbəb ola bilər.

Bəzi iş yerləri vardır ki, orada xüsusilə kişilər hökmranlıq edir və həmin yerlərdə seksizm mədəniyyətinin gücləndirilməsi riski yüksəkdir. Bundan əlavə, qərar qəbul edən vəzifələr tutan qadınlar, yaxud kişilərin hökmranlıq etdiyi iyerarxiyanın əziyyətli olduğunu düşünən qadınlar xüsusilə seksizmə məruz qala bilər.
Eynilə, qadınlar tərəfindən idarə olunan iş yerlərində, yaxud adətən "qadın" işlərinə cəlb olunduqları üçün kişilər seksizmə məruz qala bilər.

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.D.1. İş yerində seksizmi və seksist hərəkətləri qadağan edən əmək qanunvericiliyinə yenidən baxılması və risk təhlilləri, risklərin azaldılması və idarəetmə tədbirləri, şikayət mexanizmləri, zərər çəkmiş şəxslər üçün hüquqi müdafiə vasitələri və mülki və ya inzibati hüquqi proseslər vasitəsilə intizam tədbirləri kimi yaxşı təcrübələri inkişaf etdirmək.

II.D.2. Seksizm və seksist hərəkətlərlə bağlı şikayət mexanizmlərini və intizam tədbirlərini ehtiva edən uyğun davranış məcəllələrinin qəbul edilməsi məqsədi ilə həm dövlət, həm də özəl sektorlardakı müəssisələrdə qaydaların, siyasətlərin və normativlərin (əsasnamələrin) sistemli şəkildə nəzərdən keçirilməsini təşviq etmək və bu işlərə yardım göstərmək. Buna həm də miqrant və ya əlillik vəziyyətləri ilə bağlı çoxşaxəli seksizm formaları da daxil etməlidir.

II.D.3. Təşkilatlar daxilində və onların daxili qaydalarında seksizmə qarşı mübarizəni əhatə etmək üçün müstəqil peşələri, peşəkar təşkilatları və həmkarlar ittifaqları cəmiyyətlərini təşviq etmək.

II.D.4. Seksizmlə mübarizə aparmaq üçün kompleks vasitələrin, o cümlədən, seksizmin aradan qaldırılması üçün təşkilati faydaları nəzərə almaqla müvafiq qanunvericilik müddəalarının və izahatların, seksizmin aradan qaldırılması üçün seksist hərəkətlərin və yaxşı təcrübələrin nümunələrinin işlənib hazırlanması və geniş şəkildə istifadəsinin təşkil edilməsi. İşəgötürənlərə və menecerlərə, həmkarlar ittifaqı nümayəndələrinə və digər müvafiq işçilərə iş yerində seksizmin aradan qaldırılması və zərər çəkmiş şəxslər üçün mövcud hüquqi müdafiə tədbirləri xatırladılmalıdır.

II.D.5. Bərabərlik siyasətlərinin, seksizmin müxtəlif formalarının və stereotiplərin dekonstruksiyası üzrə daxili təlimatları və kampaniyaları işləyib hazırlamaq yolu ilə, qərar qəbul etmə vəzifələrdə qadınların sayının çoxaldılması və şüşə tavanın sındırılması, o cümlədən, hədəflər və kvotalar kimi müvəqqəti xüsusi tədbirlər vasitəsilə iş yerində seksizmi rədd edən institusional mədəniyyətin təşviqi üçün ən yüksək səviyyədən (dövlət və özəl sektorda) öhdəlik götürməyi tələb etmək.

II.D.6. Seksist davranışla əlaqədar maarifləndirmə, məlumat və profilaktik tədbirlərin təşviqi üçün və belə bir davranış tərzindən işçiləri qorumaq üçün ən yüksək səviyyədən (dövlət və özəl sektorda) öhdəlik götürməyi tələb etmək.

---

[9] Kişilər və qadınlar arasında peşə bərabərliyi üzrə ali şura (2016), "Seksizm əleyhinə mübarizə vasitələri toplusu – İş dünyası üçün üç vasitə", bu səhifədə mövcuddur: https://rm.coe.int/16806fbc1e.

[10] Avropa Sosial Xartiyasının (dəyişdirilmiş) 26.2-ci maddəsində tərəflərdən “iş yerində və yaxud işlə bağlı ayrı-ayrı işçilərə qarşı yönəldilmiş daimi çirkin və ya xüsusilə mənfi və təhqiredici hərəkətlər barədə izahatı, məlumatlandırmanı və onun qarşısının alınmasını dəstəkləmək və işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirləri görmək" tələb edilir.

## II.E. Dövlət sektoru

Dövlət sektorunda seksizmdən və gender stereotiplərdən asılılıq dövlət xidmətlərindən imtina edilməsi və resurslara qeyri-bərabər çıxış imkanları ilə nəticələnə bilər. Eyni zamanda, dövlət sektorunda çalışan qadınlar, o cümlədən, qərarverici orqanların seçilmiş şəxsləri və ya üzvləri bütün səviyyələrdə seksizm və seksist davranışdan irəli gələn şəxsi ləyaqətləri, legitimlilikləri və səlahiyyətləri ilə əlaqədar çətinliklərlə üzləşir .[11]

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.E.1. Dövlət sektorunda, o cümlədən, seçilmiş şuralarda çalışan şəxslər üçün müvafiq sanksiyalarla birgə daxili davranış məcəllələrinə seksizm və seksist davranış və dil əleyhinə müddəaları daxil etmək.

II.E.2. Dövlət sektorunda seksizmi adadan qaldırmaq üçün millət vəkilləri, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və ya fəallar tərəfindən həyata keçirilən təşəbbüslərə və araşdırmalara dəstək vermək.

II.E.3. Mövcud qanunvericilik çərçivəsində gender bərabərliyi müddəalarının yaxşı dövlət tenderi/satınalma praktikası kimi daxil eidlməsinin təşviq edilməsi.

II.E.4. Dövlət sektorunda çalışan əməkdaşlar üçün ictimaiyyətlə və eləcə də iş yoldaşları ilə işləyən zaman qeyri-seksist davranışın vacibliyi mövzusunda təlimlərin keçirilməsini təmin etmək. Sözügedən təlimlərə seksizm anlayışı, onun müxtəlif təzahürləri, gender stereotiplərinin və qərəzli münasibətlərin aradan qaldırılması yolları və onlara qarşı cavab tədbirlərinin görülməsi məsələləri daxil edilməlidir.

II.E.5. Dövlət qulluğu istifadəçilərinin mümkün problemləri müəyyənləşdirmək və vasitəçilik etmək üçün maarifləndirmə kampaniyaları və konkret hesabat sxemləri kimi üsullar vasitəsilə qeyri-seksist davranışlarla əlaqədar məlumatlandırılması.

II.E.6. Dövlət sektorunda və bütün qərarverici və siyasi qurumlarda, vəzifə öhdəliklərinin icrasını dayandırmaq və maliyyə yardımlarını kəsmək, yaxud maliyyə sanksiyalarını tətbiq etmək kimi üsullar vasitəsilə seksizm üzrə daxili intizam tədbirlərinin gücləndirilməsinin və həyata keçirilməsininin təşviq edilməsi.

## II.F. Ədliyyə sektoru

Mülki, inzibati və cinayət qanunvericiliyində və hüquq-mühafizə sistemlərində seksizm və gender stereotipləri ədalət mühakiməsinin idarə olunması üçün bir maneədir. Bu, qərar qəbul edənlərə müvafiq faktlardan daha çox, öncədən şüurlarda kök salan inanclara və xarakterik qərəzli münasibətlərə əsaslanan yanlış məlumatlandırma və ya ayrı-seçkilik xarakterli qərarların verilməsi ilə nəticələnə bilər. [12]

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.F.1. Məhkəmə orqanının müstəqilliyini müvafiq qaydada nəzərə alaraq bütün hakimlər və məhkəmə işçiləri üçün insan hüquqları və gender bərabərliyi və xüsusilə də qadınlara və qızlara

---

[11]Məsələn, Parlamentlərarası Birlik və Avropa Şurası Parlament Assambleyası tərəfindən 2018-ci ildə aparılmış araşdırmaya əsasən respondent qadın parlamentarilərin 85%-i parlamentdə psixoloji zorakılığa məruz qalmışdır; 40 yaşdan aşağı olan qadın parlamentarilərə qarşı daha çox təzyiq göstərilməsi ehtimalı yüksək olmuşdur; parlamentin qadın işçiləri qadın parlamentarilərdən daha çox cinsi zorakılığa məruz qalmışlar; və parlamentlərin əksəriyyətində qadınların danışmaq hüququnu təmin etmək üçün mexanizmlər olmamışdır. Parlamentlərarası Birlik və Avropa Şurası Parlament Assambleyası (2018) “Avropa ölkələrinin parlamentlərində qadınlara qarşı seksizm, qısnama və zorakılıq", bu səhifədə mövcuddur: www.ipu.org/resources/publications/reports/2018-10/sexism-harassment-and-violence-against-women-in-parliaments-in-europe.

[12] "Avropa Şurasının məhkəmə hakimiyyətlərinin müstəqilliyinin və qərəzsizliyinin gücləndirilməsi üzrə fəaliyyət planı" (CM(2016)36-sonuncu), "məhkəmə hakimiyyəti daxilində gender stereotiplərinə qarşı mübarizə məqsədilə bütün cəhdlər edilməlidir" (Fəaliyyət 2.4); OHCHR, "Məhkəmə stereotipinin aradan qaldırılması – Gender zəmində zorakılıqla bağlı işlərdə qadınların ədalət mühakiməsinə bərabər çıxışının təmin edilməsi", 9 İyun 2014-cü il.

qarşı törədilən zorakılıq hallarında gender qərəzliliyinin və gender stereotiplərinin vurduğu zərər və seksist dilinin istifadəsi mövzusunda müntəzəm və lazımi təlimlərin keçirilməsi. [13]

II.F.2. Bütün hüquq-mühafizə orqanlarına seksizm, kiber-seksizm, seksist nifrət nitqi və qadınlara qarşı zorakılıq mövzularında təlimlərin keçirilməsi; sözügedən davranışlar barəsində polisə məlumat verməsini asanlaşdırmaq; və onlayn təhqirlərə dair sübutların götürülməsi və mühafizə edilməsi üçün polisin səlahiyyətlərini gücləndirmək.

II.F.3. Milli və beynəlxalq məhkəmələrin və tribunalların seksizm və gender stereotipləri kimi naməlum mövzularda üçüncü şəxslərin müdaxilələrini və ekspert rəylərini qəbul etmək üçün hazır olduğunu təşviq etmək.

II.F.4. Hüquq pozuntuları haqqında məlumatlandırma sistemlərinin və hüquq-mühafizə orqanlarına çıxış imkanlarının təhlükəsiz, əlçatan və uyğun olduğunu təmin etmək; zərər çəkmiş şəxslərin müvafiq formada məlumat verməsinə və ya işlərinin təqib olunmasına maneçilik törədən maliyyə sanksiyalarının və ya digər saxlanılma tədbirlərini yüngülləşdirmək. Təkrar zərər çəkmiş şəxsə çevrilmək riskinin aradan qaldırılması üçün tədbirlər görmək.

II.F.5. Məhkəmə orqanlarının ictimai mühazirələr və digər tədbirləri təşkil etmək məqsədilə ədliyyə sistemində seksizm və gender stereotipləri ilə bağlı məhkəmə orqanı işçiləri və digər maraqlı tərəflər arasında maarifləndirmə işini təşviq etmək.

## II.G. Təhsil müəssisələri

Seksist mesajlar cəmiyyətimizi formalaşdırır və təhsil sistemləri ilə doldurulur və reproduksiyaya məruz qalırlar. Uşaqlar və gənclər gender stereotiplərini tədris planları, tədris materialları, davranış və dil vasitəsilə özündə birləşdirirlər.[14] Seksizm bütün səviyyələrdə məktəbəqədər təhsil müəssisələrindən başlamış ali məktəblərə qədər təhsil müəssisələrinin mədəniyyətinə daxil edilə bilər. Bu, bir neçə formanı özündə göstərə bilər, məsələn, seksist imicin, dilin və ifadələrin tolerantlığı və bayağılaşması (adi hal hesab edilməsi); nalayiq gender davranışlarına dözümsüzlük; şəxsi heyət və tələbələr tərəfindən qərəzli münasibətləri aradan qaldırmamaq; şikayət və qeydiyyat mexanizmlərinin yoxluğu və ya uyğunsuzluğu; cinsi qısnamaya (o cümlədən, digər tələbələr tərəfindən törədilən) görə sanksiyaların olmaması. Kök salmış bu seksizm formaları sonrakı təhsil, karyera və həyat tərzi seçimlərinə təsir göstərə bilər. Dövlətlər həmçinin özəl müəssisələrin öz hərəkətlərinə görə cavabdehliyini təmin etmək üçün məsuliyyət daşıyırlar və dini təhsil müəssisələri üçün istisna hal tətbiq edilməməlidir.

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.G.1. Üzv ölkələrə təhsil sahəsində gender amilinin nəzərə alınmasına dair Nazirlər Komitəsinin CM/Rec(2007)13 saylı Tövsiyəsinin müddəalarının tam şəkildə tətbiq olunması.

II.G.2. Təhsil prosesinin bütün cəhətlərinə gender bərabərliyinin, ayrı-seçkiliyə yol verilməməsinin və seksizm və seksist davranışların aradan qaldırılmasının, o cümlədən, hadisələrə dair məlumatın verilməsi, onlara qarşı cavab tədbirlərinin görülməsi və qeydiyyatının apaırlması mexanizmlərinin daxil edilməsinin təmin edilməsi.

II.G.3. Seksizm və seksist davranışlarla bağlı təhsil müəssisələrində profilaktik kampaniyaların həyata keçirilməsi və/yaxud dəstəklənməsi və bu cür fenomenlərə, o cümlədən, gender və mənəvi-psixoloji təzyiqə (hədə-qorxuya), kiber-bullinqə (virtual hədə-qorxuya), seksist təhqirlərə və gender zəminində zorakılığa qarşı sıfır dözümlülüyün təmin edilməsi.

[13] Avropa Şurasının (2017), "Qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsinə dair məhkəmə hakimləri və dövlət ittihamçıları üçün stolüstü kitaba" baxın: https://rm.coe.int/training-manual-women-access-to-justice/16808d78c5

[14] "Təhsildə və təhsil vasitəsilə gender stereotipləri ilə mübarizə" mövzusunda Avropa Şurası konfransının (Helsinki, 9-10 oktyabr 2014-cü il) nəticələrinə və tövsiyələrinə baxın: https://rm.coe.int/1680590f0.

II.G.4. Bütün təhsil müəssisələrində seksizmin, gender stereotiplərinin və qeyri-ixtiyari gender qərəzliliyinin qarşısının alınması və onlarla mübarizə məsələlərindən və yollarından bəhs edən tədbirlərin həmçinin dövlət qurumlarının da iştirakı ilə təşkil edilməsi.

II.G.5. Müəllimlərin xidmətdən xaric və xidmət daxili təlim kurslarına və məktəb rəhbərliyi üçün keçirilən kurslarına gender bərabərliyi perspektivinin inteqrasiya edilməsi.

Tədris metodologiyası, alətlər və tədris proqramları ilə əlaqədar olaraq:

II.G.6. Gender bərabərliyinə, ayrı-seçkiliyin ləğvinə və insan hüquqlarına dair tədris metodologiyalarını və alətlərini erkən uşaqlıq yaşlarından başlayaraq həm dövlət, həm də özəl təhsilin bütün səviyyələrində tədris proqramlarına inteqrasiyasını təmin etmək üçün təlimatların hazırlanması. Buraya uşaqların özünə güvənməsini və onların münasibətlərində və davranışlarında məsuliyyətlərini artırmağa təşviq etmək məqsədi ilə özəl həyatları üçün təhsili, o cümlədən, razılığı və özəl hüdudları daxildir. Kurikulumlara qızlar və oğlanlar üçün onların yaşlarına uyğun, sübuta əsaslanan və elmi cəhətdən dəqiq və cinsi mənsubiyyət və cinsi zəmində hərtərəfli təhsil daxil edilməlidir. Kirrikulumlara miqrant və ya əlillik vəziyyətləri haqqında nümunə əsasında çoxşaxəli seksizm formaları da daxil etməlidir.

II.G.7. Tədris materiallarında gender stereotiplərinin aşkarlanmasına və aradan qaldırılmasına kömək etmək üçün təlimçilər, müəllimlər və müfəttişlər üçün resurslar, yaxşı təcrübələr və təlim/tədris materialları və əl kitabı ilə birgə veb-saytın hazırlanmasını təşviq etmək.

II.G.8. Gender stereotiplərinə əsaslanmayan təhsil və karyera seçimlərinin edilməsində tələbələrə köməklik göstərən xüsusi proqramlar və karyera məsləhətləşmələrinin, o cümlədən, gender stereotipləri və qeyri-ixtiyari qərəzli münasibətlər haqqında şəxsi heyət üçün təlimlərin təşkilinin təşviq edilməsi.

## II.H. Mədəniyyət və idman

Seksizm mədəni həyatın bir çox cəhətlərində, xüsusilə də gender stereotiplərinin hər yerə nüfuz etməsi ilə ifadə olunur. BMT-nin İqtisadi, Sosial və Mədəni hüquqlar üzrə Komitəsinin məlumatlarına əsasən mədəni həyata aşağıdakılar aiddir: həyat yolları, dil, şifahi və yazılı ədəbiyyat, musiqi və mahnı, qeyri-verbal ünsiyyət, din və ya inam sistemləri, ayinlər və mərasimlər, idman və oyunlar, istehsal üsulları və ya texnologiya, təbii və texnogen mühitlər, yemək, geyim və sığınacaq, incəsənət, adət-ənənə. İncəsənət və mədəniyyət, münasibətlərin və gender rollarının formalaşdırılmasında mühüm amillərdir və buna görə də bu sahələrdə seksizmin aradan qaldırılması olduqca vacibdir. Bundan əlavə, İstanbul Konvensiyasına əsasən, mədəniyyət, din, adət-ənənə qadınlara və qızlara qarşı zorakılıq əməllərinin törədilməsinə haqq qazandıran hal hesab edilməməlidir.

İdman həyatında həll edilməli olan məsələlərə aşağıdakılar daxildir: mediada seksist münasibətlər, idman təşkilatları, məşqçilər, idman rəhbərləri, atletlər və s.; idmanda qadınların seksist obrazları, qadınların stereotipik rollarda təsvir edilməsi və ya onların məşğul olduqları idman növlərini təhqir etməklə onların idman nailiyyətlərinin bayağılaşdırılması; və idman tədbirlərində seksizm və seksist nifrət nitqi.

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.H.1. Mədəniyyət və idman sektorlarında seksizmlə mübarizə aparmaq üçün vasitələr (məsələn, gender amillərini nəzərə alan dilə və ünsiyyətə dair təlim materialları) yaratmaq və təşviq etmək.

II.H.2. Nazirlər Komitəsinin üzv ölkələrə idman sahəsində gender amilinin nəzərə alınmasına dair CM/Rec(2015)2 saylı tövsiyəsinin və Nazirlər Komitəsinin üzv ölkələrə audio-vizual sektorda gender bərabərliyinə dair CM/Rec(2017)9 saylı tövsiyəsinin təsdiq edilməsi və həyata keçirilməsi.

II.H.3. Seksist fərziyyələrə düzəliş etmək və ya seksist nifrət nitqini pisləmək üçün aparıcı mədəniyyət və idman göstəricilərinin təşviq edilməsi.

II.H.4. Bütün səviyyələrdə idman federasiyalarından və assosiasiyalarından və mədəniyyət təşkilatlarından seksizm və seksist davranışların qarşısını almaq üçün intizam tədbirlərinə dair müddəaları da özündə əks etdirən davranış məcəllələrinin hazırlamasına çağırmaq. Mədəniyyət və idman tədbirlərində seksizm və seksist nifrət nitqinə qarşı sıfır tolerantlığın inkişaf etdirilməsi.

II.H.5. İdman və mədəniyyət sektorlarının bütün səviyyələrində gender bərabərliyini və qadınlar və kişilər, qızlar və oğlanların qeyri-stereotipik obrazlarını təşviq etmək üçün konkret tədbirlər görməyə çağırmaq.

II.H.6. Qadınların iştirakı ilə keçirilən mədəniyyət və idman tədbirlərinin kişilər üçün keçirilən tədbirlər kimi bərabər bir şəkildə mediada, xüsusilə də ictimai mediada yayımlanmasını təşviq etmək və qadınların nailiyyətlərini ictimai şəkildə qeyd etmək. [15] Az təmsil olunduqları idman yarışlarında iştirak edən qadınların və kişilərin, qızların və oğlanların nümunəvi müsbət rollarının nümayiş və təşviq edilməsi.

## II.I. Şəxsi sahə

Ailə içərisində seksizm stereotipik rolların güclənməsinə, qadınların hüquqlarının azalmasına, hörmətdən düşməsinə və qadınlara və qızlara qarşı zorakılıq dövrəsinin yaranmasına kömək edə bilər. Bu, həm də yaşayış tərzinin və karyeranın seçimlərinə də təsir göstərə bilər. Daha çox sayda qadınlar haqqı ödənilən əməklə məşğul olmağa başladıqlarına görə ailə daxilində ənənəvi gender rollarının mövcud olmasına baxmayaraq (kişilər evə çörək qazananlar, qadınlar isə ev işləri ilə məşğul olanlar kimi) ailələrdə və dövlətlərdə dəyişikliyə kömək edən amillər çox fərqlənir. Seksist davranış fərdlər-arası münasibətlərdə geniş yayılmaqda davam edir və qadınlar evdə kişilərdən olduqca daha çox ödənişsiz əməklə məşğul olur.

CEDAW Maddə 16 Dövlətlərdən ailə daxilində qadınlar və kişilər arasında bərabərliyi təmin etmək üçün müvafiq tədbirlərin görülməsini tələb edir. [16] Seksizm və qadınlara və qızlara qarşı zorakılığın qarşısının alınması arasındakı əlaqə özəl sektorda tədbir görmək zərurətini sürətləndirir.

Yuxarıda göstərilən, xüsusilə də dil və maarifləndirmə ilə əlaqədar olan, eləcə də media, təhsil və mədəniyyət sektorları ilə bağlı olan tədbirlər əsasən də özəl sektorda seksizmi adadan qaldırmaq üçün uyğundur.

Halbuki, davranışlar qadınlara qarşı fiziki, psixoloji və ya iqtisadi zorakılığa yol açan cinayətkarlıq həddinə çatmazsa ailə daxilində seksizmə görə sanksiyalar uyğun hesab olunmur.

Üzv dövlətlərin hökumətləri aşağıdakı tədbirləri nəzərə almağa dəvət olunur:

II.I.1. Şəxsi həyat ilə iş həyatı arasında uyğunlaşma, o cümlədən, analıq məzuniyyəti ilə atalıq məzuniyyəti, qadınlar və kişilər üçün ödənişli məzuniyyət, keyfiyyətli və əlverişli uşaq baxımı və sair sosial xidmətlərə ümumi çıxış imkanları və həm qadınlar, həm də kişilər üçün çevik iş şəraitlərinin yaradılması ilə əlaqədar tədbirlərin görülməsi. Yaşlı insanlara və digər asılı şəxslərə qayğı göstərmək üçün xidmətlərə çıxışın yaxşılaşdırılması. Qadınlar və kişilər arasında ev təsərrüfatlarının və qayğı öhdəliklərini bərabər şəkildə bölüşməyi təşviq etmək üçün kampaniyaların təşkil edilməsi.

II.İ.2. Cinsi mənsubiyyətindən, mülki vəziyyətindən, bacarıqlarından və ya ailə vəziyyətindən asılı olmayaraq uşaqlar üçün bərabər imkanlara zəmanət verən valideynlik borcunun layiqincə yerinə yetirilməsini dəstəkləyən siyasət və tədbirlərin təşviq edilməsi. Valideynlik borcunun layiqincə yerinə yetirilməsi dedikdə, uşağın ən yaxşı maraqlarının inkişaf etdirilməsinə, gender stereotiplərdən azad olmasına, imkanlarının artırılmasına, zorakılıqdan uzaq olmasına və uşağın tam inkişafına imkan yaratmaq üçün hüdudların müəyyən edilməsinə əsaslanan və tanıdıcı və istiqamətləndirici imkanla təmin edən bir valideyn davranışı nəzərdə tutulur.

[15] Məsələn, fəal qadınların bir bayramı olan "Qızlar qadirdir": (www.thisgirlcan.co.uk/).

[16] Bundan əlavə, CEDAW Maddə 2.e dövlətlərdən "qadınlar barəsində hər hansı bir şəxs, təşkilat, yaxud müəssisə tərəfindən ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirləri görməyi" tələb edir.

II.I.3. Kiber-seksizm və internet pornoqrafiyası ilə mübarizə aparmaq üçün valideynlərin bacarıqlarını artırmaq məqsədilə tədbirləri və vasitələri tətbiq etmək.

II.I.4. Ailə və fərdlər-arası münasibətlər sahəsi ilə məşğul olanlar üçün ixtisasartırma kurslarının bir hissəsi olaraq seksizm və seksist davranışın müəyyən edilməsi və aradan qaldırılması sahəsində təlimlərin təşviq edilməsi (məsələn, sosial xidmətlər personalı, o cümlədən, analara və uşaqlara qayğı mərkəzləri).

## III. Hesabatın verilməsi və qiymətləndirmə

Bu Tövsiyə, üzv dövlətlərinə onun həyata keçirilməsində irəliləyişlərin monitorinqini aparmaq və görülmüş tədbirlər və əldə edilmiş nailiyyətlər haqqında səlahiyyətli rəhbər komitə(lər)yə məlumat verməsini xahiş edir.

Hesabat müntəzəm olmalı və ona aşağıdakı məlumatları daxil etməlidir:

- xüsusilə ictimai yerlərdə, internetdə və mediada, iş yerində, dövlət sektorunda, ədliyyə, təhsil, idman və mədəniyyət sektorlarında və özəl sektorda seksizmin, seksist davranışın, gender stereotipinin və seksist nifrət nitqinin aradan qaldırılması üçün hüquqi və siyasət çərçivələri, tədbirləri və ən yaxşı təcrübələr, o cümlədən, seksist davranış haqqında məlumatın verilməsi üçün vasitələr, eləcə də intizam prosesi və sanksiyalar;

- anlayışlar, göstəricilər, milli monitorinq və qiymətləndirmə mexanizmləri də daxil olmaqla, seksizmi və seksist davranışları aradan qaldırmaq üçün qəbul edilmiş gender bərabərliyi üzrə hər hansı hərtərəfli siyasət və ya milli strategiya çərçivəsində siyasət;

- milli səviyyədə icranın monitorinqini aparmaq üçün yaradılmış və ya təyin edilmiş hər hansı bir əlaqələndirmə qurumunun işi;

- hədəf seçilmiş sahələrdə seksizm və seksist davranış hadisəsi və onun fəsadları, eləcə də bu cür tədqiqatların nəticələrinə dair məlumatların təqdim edilməsi və dəstəklənməsi;

- bütün səviyyələrdə, o cümlədən, media üzrə həyata keçirilən milli maarifləndirmə tədbirləri və kampaniyaları.

---

*Bu sənəd Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Azərbaycan dilinə tərcümə edilmişdir, tərcümədən məsuliyyəti tərçüməçi daşıyır.*